**Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.2-ci bəndinin icrası ilə bağlı dövlət qulluqçularının etik davranış məsələləri üzrə 2013-cü ildə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən görülmüş tədbirlər barədə**

# Hesabat

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən, etik davranış qaydalarını və onlara əməl olunması ilə bağlı təminatları konkretləşdirmək məqsədilə təsdiq edilmiş "Əmlak Məsələləri Dövlət Komitəsinin aparatında və onun strukturuna daxil olan qurumlarda işləyən dövlət qulluqçularının etik davranış Qaydaları"na uyğun olaraq aidiyyəti tədbirlər davam etdirilmişdir.

Həmin Qaydalara uyğun olaraq müvafiq struktur bölmə tərəfindən komitədə işləyən dövlət qulluqçularının xidməti davranışlarının qanunvericiliklə müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarətin təmin edilməsi, etik davranış qaydalarının əməl edilməsi vəziyyətinin öyrənilməsi və onun təhlilinin aparılması mütəmadi olaraq həyata keçirilir. Eyni zamanda etik davranış məsələləri komitənin kollegiya iclaslarında və müşavirələrdə mütəmadi müzakirə edilir və bu sahədə icrası zəruri olan tapşırıqlar verilir. Aparılmış təhlillərin nəticəsi olaraq pozuntu hallarına yol vermiş dövlət qulluqçuları barəsində intizam tənbehi tədbirləri görülür.

2013-cü ildə Əmlak Məsələləri Dövlət Komitəsinin strukturuna daxil olan qurumlarda işləyən 12 dövlət qulluqçusu mədəni davranış qaydalarının pozulmasına, əmr, sərəncam, tapşırıqların və digər əmək funksiyalarının icrasında yol verdikləri nöqsanlara görə intizam məsuliyyətinə cəlb olunmuşdur. Belə ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunun 25.2.1-ci maddəsinə əsasən 9 işçiyə töhmət verilmiş, 25.2.6-cı maddəsinə əsasən 3 işçi işdən azad olunmuşdur.

Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi şöbələrində işləyən dövlət qulluqçularının xidməti davranışlarının "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna nəzarətin təmin edilməsi və bu sahədə maarifləndirmə işlərinin aparılması məqsədi ilə komitənin aidiyyəti struktur

bölməsinin əməkdaşları və yaradılmış işçi qrupları tərəfindən zəruri nəzarət tədbirləri həyata keçirilmişdir. Bununla yanaşı, komitədə çalışan dövlət qulluqçuları üçün 2013-cü ilin aprel-may və oktyabr-noyabr aylarında "Dövlət qulluqçularının etik davranış qaydaları", sentyabr ayında "İnformasiya azadlığının təmin edilməsi" mövzusunda 19 seminar, iyul-avqust aylarında isə "Maraqlar toqquşmasının qarşısının alınması" mövzusunda 18 təlim seminarı keçirilmişdir. Regionlar üzrə keçirilmiş və 590 nəfərin iştirak etdiyi həmin seminarlar barədə məlumatlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir. Dövlət qulluqçularının etik davranış məsələləri üzrə maarifləndirmə işinin davam etdirilməsi məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş etik normaları üzrə gələcəkdə mütəmadi təlimlərin təşkil edilməsi planlaşdırılır.

İşçilərin xidməti fəaliyyətlərində yol verdikləri etik davranış qaydaları pozuntusu ilə bağlı vətəndaş müraciətlərinin qəbulu, baxılması və cavablandırılmasında çevikliyi və şəffaflığı təmin etmək məqsədi ilə komitədə və tabeliyində olan qurumlarda müraciətlərin elektron poçt ünvanı vasitəsi ilə qəbulu və cavablandırılması həyata keçirilir. Komitənin rəsmi internet səhifəsində "Etik davranış qaydaları" bölməsi yaradılmış və hazırda həmin internet səhifəsi vasitəsi ilə birbaşa müraciətlərin və elektron ərizələrin qəbul edilməsi imkanları mövcuddur.

Etik davranış qaydalarının pozulması ilə əlaqədar daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsinə dair aidiyyəti təşkilat tərəfindən "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklikləri nəzərdə tutan müvafiq layihə təqdim edildikdən sonra təkliflərin verilməsi təmin ediləcəkdir.